DOI: https://doi.org/10.36719/2663-4619/117/30-32

**Aysel Hüsüzadə**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
https://orcid.org/0009-0001-0953-2463
ayselhusuzade75@gmail.com

# Türkiyə və İsrail əlaqələrində Azərbaycan mövqeyi

**Xülasə**

Türkiyə və İsrail münasibətləri 15-ci əsrdən başlayır. Yəhudilər özlərinin varlığını müdafiə etmək üçün Osmanlıdan yardım istəmişdilər.Rəsmi əlaqələr isə İsrailin müstəqilliyini Türkiyənin tanımağı ilə oldu. Zaman zaman diplomatik əlaqələr zəifləmiş, daha sonra uzlaşma baş vermişdir. İki ölkə arasındakı münasibətlər Soyuq müharibə dövründən sonra siyasi, iqtisadi, hərbi səviyyədən strateji səviyyəyə gəlib çatmışdır. Bunun səbəblərindən biri də Yaxın Şərqdə Körfəz münaqişəsi idi. İki ölkə arasındakı hərbi ittifaqdan üçüncü bir ölkə üçün heç bir zaman təhdid kimi istifadə edilməyib.
***Açar sözlər:*** *yeni strategiya, vasitəçilik, uzlaşma, Yaxın Şərq, geosiyasi mövqe, diplomatiya*

**Aysel Husuzade**
Azerbaijan State University of Economics
Master's student
https://orcid.org/0009-0001-0953-2463
ayselhusuzade75@gmail.com

# Azerbaijan's Position in Turkey-Israel Relations

**Abstract**

Turkey and Israel's relations date back to the 15th century. The Jews sought help from the Ottomans to defend their existence. Official relations began with Turkey's recognition of Israel's independence. Diplomatic relations have weakened over time, and then reconciliation has occurred. Relations between the two countries have reached a strategic level from the political, economic, and military levels after the Cold War. One of the reasons for this was the Gulf conflict in the Middle East. The military alliance between the two countries has never been used as a threat to a third country.
***Keywords:*** *New strategy, mediation, reconciliation, Middle East, geopolitical position, diplomacy*

## Giriş

Yaxın Şərq, Cənubi Qafqaz regionunda baş verən hadisələr hər zaman regional və beynəlxalq səviyyədə diqqət mərkəzində olub. Təl-Əviv Suriyada baş verən insident konteksində Azərbaycan vasitəsi ilə Türkiyə ilə uzlaşan əlaqələr qurmaq istəyir. Azərbaycan-İsrail əlaqələrində Suriyanın prosesi də hər zaman müzakirə mövzusu olub. Suriyada yaşayan türkmənlər ilə əlaqəli hadisələrin Suriya mövzusunda diskusiya oluna bilinəcəyi düşünülür. Həyata keçirilən hadisələr çərçivəsində regionda İranın da prizmasından baxsaq, nüfuzunun azalması müşahidə edilir. Məlumdur ki, Tükiyə İsrail anlaşmazlıqlarında Azərbaycan vasitəçi ölkə olub. Təl-Əviv və Ankara aralarında Suriya ilə bağlı uzlaşmazlıqların həlli üçün Azərbaycanda uğurlu görüşlər təşkil edilib. İki ölkə arasındakı gərginliklər tarix boyu ABŞ-ın Qüdsü İsrail üçün paytaxt kimi tanıması ilə artıb. Türkiyə Fələstin məsləsində mövqeyi hər kəsə məlumdur, lakin İsrail ilə əlaqələrdə də hər iki ölkə münasibətləri yumşaltmaq mərhələsindədir. Beynəlxalq münasibətlər konteksində Türkiyə və İsrail əlaqələri daim diqqət mərkəzində olub. Fələstin münasibətinə Türkiyənin göstərdiyi həssas davranış, Fələstinin İsrail ilə çıxılmaz vəziyyəti, Livanda İsrail əməliyyatı, bütün bunların hamısı regionda təsiredici rol


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

oynamışdır. Məlumdur ki, Yaxın Şərq Türkiyənin xarici siyasətində mühüm rol oynayan bölgədir (İsrail-Türkiyə qaynar xətt çəkdi).

**Tədqiqat**

Azərbaycanın Cənubi Qafqazdakı,enerji qaynaqlarına sahib olması, strateji mövqeyi, əlverişli coğrafi mövqedə yerləşməsi İsrailin ikili münasibətə önəm verməsinə gətirib çıxarmışdır. Qonşu ölkələri ilə dəngəsiz əlaqələrinə görə neft və qaz idxalına ehtiyac duyan İsrail Azərbaycanı bu enerji sahəsində özünə ixaracatçı kimi görür. İsrail enerji idxalatçısı olmaqdan ixracatçı olmaq səviyyəsinə gəlməyi qarşısına proritet qoymuşdur. Azərbaycan Türkiyə ilə də din, dil, mədəniyyət baxımdan yaxın mövqelərə malikdir və hər zaman bir birlərinin siyasətini dəstəkləmişdir (Türkiyə-İsrail münasibətləri: keçmiş, bu gün və gələcək).

Azərbaycanın silah idxalatçılarından biri də İsraildir. Əlaqələr balanslı formada inkişaf etmiş və Türkiyənin maraqlarına heç zaman zidd olmamışdır. 2 Qarabağ müharibəsi zamanı Azərbaycana İsrailin silah dəstək verməsi Türkiyənin də silah dəstəyi ilə birgə olmuşdur. Azərbaycan hər iki ölkə ilə əlaqələrdə vasitə rolunu oynamışdır. Bu Azərbaycan dövlətinin nüfuzunu və doğru diplomatiya irəli sürdüyünün göstəricisidir (İsrael and Azerbaijan Furtive Embrace).

Türkiyə və İsrail arasında əlaqələr pisləşən dövrdən Türkiyə yerli silah sənayəsini gücləndirmişdir və İsrail bu sahədə Türkiyəni itirmişdir (İsrael's Questfor Normalization with Azerbaijan and the Muslim States of Central Asia).

Dəyərləndirilən ikili əlaqələr fonunda Müsəlman dünyasında İsrailin olumsuz baxış açısının dəyişdirilməsi istiqamətində olduğunu görünür. Qonşu ölkələrdən İran iki ölkə arasındakı normal münasibətləri özünə təhdid bilir. İki ölkə arasındakı əlaqələrdə mühüm dönəmlərdən biri də 2010-cu ildə Qəzzə bölgəsinə humanitar yardım aparan Mavi Mərmərə gəmisinə İsrailin basqını olmuşdur. İsrailin beynəlxalq sularda Türk vətəndaşlarını öldürməsi ilə İsrail bölgədəki əlaqə qura biləcəyi ölkəni itirdi, qarşı qarşıya gəldilər. İsrail Türkiyə tələblərini yerinə yetirmədi və gərginlik yüksək səviyyəyə çatdı. Ərəb Baharı üsyanı ilə Orta Şərq xalqı demokratiya istəmiş və diktatura ləğv olunmağa başladı. Digər ölkələrə də təsir edən bu hadisələr İsraili tədirgin etdi. Misirdə müsəlmanların hakimiyyətə gəlməsiylə İsrailla olan əlaqələr zəiflədi. Suriyada daxili müharibələr İsraili qorxutdu (Türkiyənin Ərəb Yaxın Şərqinə Yönelik Siyasəti).

Bölgədə İsrail üçün yaranan narahatlıqdan sonra ABŞ-ın da təsir etməsi ilə birlikdə Mavi Mərmərə basqını və vətəndaşların həlak edilməsi üçün İsrail Türkiyədən üzr istəmişdir. Əlaqələrin normallaşdırılması üçün addımlar atıldı. Lakin bunlar siyasi əlaqələrin yaxşılaşması üçün zəmin yaratmadı. Yaşanan gərginliklər turizm sektoruna da təsir etmişdir.

Ərəb baharı hadisələrindən sonra ideologiya cəhətdən Türkiyəyə yaxın hökumət idarə edən Tunis və Misirdən sonra Türkiyə Avropadan Yaxın Şərqə geosiyasi marağını keçirdi. İsraillə əlaqədə də Türkiyə Fələstinin yanında oldu. Qətərlə müttəfiqlik istisna olmaqla Körfəz ölkələri ilə əlaqər də gərginlik səviyyəsindədir və Türkiyə bu əlaqələri gücləndirmək niyyətindədir. Ərəb baharı dövründə Türkiyə aktiv bölgə xaici siyasəti həyata keçirməyə başlamışdır və islam aləmi ölkələrinin ədalət mövqeli tələbinə dəstəyini bildirmişdir. İsrailin Qəzza üçün olan siyasi xəttini isə pisləmişdir (İsrail-Türkiyə Münasibətləri və Ərəb Dünyasında Dəyişiklik).

Məbəd dağı hadisələri ilə iki dövlət arasındakı münasibətlər yenə korlanmışdır. Məbəd dağı Qüdsün müqəddəs bölgəsidir. Burada həyata keçirilən gərginliklər Fələstin ilə İsrail arasında baş verənləri dini müstəviyə daşıyır. Azərbaycan balanslı mövqe sərgiləyərək Əl Əqsa məscidinə zorakılığı pislədi (Nuriyeva).

Suriya məsələsində gəldikdə isə danışıqlar nəticəsində xüsusi qaynar zonanın yaratmaq razılaşdırıldı. Qaynar xətt Suriyada hər hansı münaqişə yaranan zaman anında reaksiya verməyi təmin edəcək. Azərbaycanın vasitəçi olaraq iştirak etdiyi bu danışıqlarda Türkiyə Suriyada zirehli qurğular yerləşdirmək təklif etdi və bununla İsrail razılaşdı. Təl-Əviv Suriyada Türkiyənin İsrail Hərbi Hava Qüvvələrini izləyən hava hücumundan müdafiə üçün radarlar yaratmayacağı təqdirdə razılaşdı. Bütün danışıqlar Suriyada ola biləcək hərbi insidentlərin qarşısını almağa istiqamətlənmişdir (İsrailin Yaxın Şərq Strategiyası və Suriya).

## Nəticə

Qeyd etmək olar ki. Türkiyə və İran münasibətləri nə tam qopur, nə də çox yaxınlıq ilə xarakterizə olunmur. Mövcud vəziyyətlərə uyğun olaraq xarici siyasətdə şəraitə uyğunlaşmalar müşahidə edilir. Faktiki münasibətlər Azərbaycanın strateji tərəfdaşı olan Türkiyənin Azərbaycan və İsrail arasındakı mülayim münasibətlərə malik olması ilə maraqlıdır. Azərbaycanın İsrail və Türkiyə arasındakı əlaqədə vacib yerə sahib olması Azərbaycanın bölgədə mühüm söz sahibi olmasına diqqət çəkən ünsürdür.Azərbaycan hər zaman iki ölkə arasında mövcud gərginlikdən narahat olduğunu vurğulayıb. Israil ilə Azərbaycan münasibətlərinin yaxın keçmişinə nəzər salsaq görərik ki, 2020-ci il 44 günlük 2 Qarabağ Müharibəsində İsrail Azərbaycanı dəstəkləmişdir. Azərbaycanın bölgədəki strateji önəmi İsrailin bölgədəki ittifaqlarını genişlətməsi üçün zəruridir. Nəticə olaraq bildirmək olar ki, keçmişdən bu günə qədər Türkiyə-İsrail əlaqələrinin vəziyyətinə baxsaq Qəzza savaşından sonra xüsusi bir irəliləmə olmamışdır. Qəzza hərbi əməliyyatından dolayı Türkiyə İsrail ilə ticarət münasibətlərini azaltdı. Həm İslam aləmində, həmçinin də digər dövlətlərlə balanslılığı qoruyan Azərbaycan Qəzzada hadisələrindən sonra həm İsrailli, həmçinin də fələstindən olan mülki əhalinin həlak olmalarını pisləmişdir.

Suriya konteksində hərbi qarşıdurmaların baş verməməsi üçün Azərbaycan Türkiyə və İsrail üçün vasitəçi rolu oynamışdır,danışıqlar üçün ölkədə şərait yaratmışdır.

Dalğalanmalar ən çox Qəzza hərbi əməliyyatlarına əsasən baş verib. Türkiyə İsrailin hərbi əməliyyatlarını qloballaşan dünyada təhlükəsizlik üçün böyük təhdid olduğunu vurğulayır.

Azərbaycan İsrail və Türkiyə arasında ziddiyyət təşkil edən dövrdə balanslaşdırılmış xarici siyasət həyata keçirmişdir. İsrail müsəlman dünyasında yeni müttəfiqlər axtarışındadır.

## Ədəbiyyat

1. İsrail-Türkiyə qaynar xətt çəkdi, globalinfo.az
2. Türkiyə-İsrail münasibətləri: keçmiş, bu gün və gələcək, qafsam.org
3. İsrael and Azerbaijan Furtive Embrace. Middle East Quartely www.meforum.org
4. İsrael's Questfor Normalization with Azerbaijan and the Muslim States of Central Asia. Journal of Third World Studies. www.qlineorientalist.com
5. Türkiyənin Ərəb Yaxın Şərqinə Yönelik Siyasəti, Ankara
6. İsrail-Türkiyə Münasibətləri və Ərəb Dünyasında Dəyişiklik", Burhanttin Duran and Others, Turkish Foreign Policy Yearbook
7. Nuriyeva, S. "İsrailin Cənubi Qafqaz Maraqları", Star www.star.com.tr
8. İsrailin Yaxın Şərq Strategiyası və Suriya, www.harunyahya.org.tr